BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2008

# BALKAN BİRLİYİ VƏ ONUN GERÇƏK ÜZÜ

**S.F.BAXŞƏLİYEV**
*Sumqayıt Dövlət Universiteti*

Dünyanın siyasi xəritəsini kökündən dəyişən, başdan-başa yenidən qayçılayan Birinci dünya savaşına gedən yolları açan və təmizləyən, bu yönümdə bütün əngəlləri aradan qaldıran ən böyük hadisə 1912-1913-cü illərin Balkan savaşları olmuşdur. Balkan savaşlarını isə beynəlxalq millətlərarası imperializm hazırlamışdı. Bu savaşların memarları, onu boya-başa çatdırıb yetişdirənlər Avropanın böyük dövlətləri – İngiltərə, Fransa, İtaliya, Avstriya-Macarıstan, Almaniya və bir də Rusiya idi. Bu dövlətlərin hər biri bu hazırlıqda müəyyən bir nisbətdə, müəyyən ölçüdə iştirak etmişdi. Sözsüz ki, burada Rusiya baş memar idi.

Rus və sovet ədəbiyyatında və Qərb mənşəli bəzi yanaşmalarda uzun müddət Balkan savaşlarının milli azadlıq hərəkatı mahiyyətini daşıdığı söylənilmişdir. Bu savaşı hazırlayıb körükləyən böyük dövlətlərin, xüsusilə Rusiyanın və savaşın hücumçu icraçılarının – Balkan dövlətlərinin təcavüzkar niyyətləri üzərinə, türk etnosuna qarşı soyqırımın tətbiqi üzərinə pərdə çəkməyə çalışılmışdır.

Balkan savaşları və onun nəticələri ilə XX yüzilin əvvəllərindəki Azərbaycan arasında sıx bağlılıq vardı və bu bağlılıq bu gün də davam etməkdədir. Çarizmin yasaqlarına baxmayaraq, Azərbaycanın o zamankı mətbuatı Balkan savaşları ilə bağlı məsələlərin və hadisələrin gedişinin işıqlandırılmasına öz səhifələrində geniş yer verirdi. Bu illərdə Azərbaycan, milli oyanışın bir mərhələsini yaşadı. O dövrkü mətbuatda milli qüvvələr və xüsusilə ziyalılar xalqı Balkanlarda qanları su kimi axıdılan, mal və mülklərindən məhrum edilib yurdlarından köç etməyə zorlanan milyonlarla soydaşlarımıza yardım etməyə çağırırdı.

O zamankı Rusiyanın hüdudları içində yaşayan digər müsəlman – türk xalqları ilə birlikdə Azərbaycan da bu savaşda Osmanlı dövlətinə maddi və mənəvi yardım göstərirdi. Bir çox könüllü Osmanlı ordusu sıralarında iştirak etmək üçün Türkiyəyə yola düşmüşdü (1, s. 48). Orada təşkil edilən «Kafkas könüllü qitası»nda («Qafqaz könüllü dəstəsi») bir çox Azərbaycan türkü vardı (2, s. 32). Onlar zabit və əsgər kimi savaşlarda bilavasitə iştirak etdilər. Tabur komandiri İbrahim bəy Cahangiroğlu Ədirnənin qurtuluşunda şəhərə ilk girənlərdən olmuşdu. Yusif Ziya Talıbzadə, Əli bəy Hüseynzadə, Əhməd Cavad və s. kimi görkəmli ziyalılarımız Balkan savaşının iştirakçıları idilər (1, s. 52).

Balkan savaşlarının hazırlanması və başlanmasında, tarixdə yeni bir xaç yürüşünün həyata keçirilməsində Balkan Birliyinin (İttifaqının) mühüm rolu oldu. Rusiya və onun müttəfiqləri Balkanlardakı iddialı, savaş meylli qüvvələri Balkan Birliyində birləşdirib onları Osmanlı dövlətinə, Türkiyəyə qarşı yönəltdilər. Təqdim edilən bu məqalənin diqqət

mərkəzində də Balkan Birliyinin meydana gəlməsi durur. Balkan Birliyinin qurulma prosesi məqalədə reallığa əsaslanan bir yanaşmadan izlənir.

Üç qitədə torpaqları olan Osmanlı imperatorluğuna daxil olan xalqlar etnik və dini mənsubiyyət baxımından müxtəlif idi. Xristian əhali başlıca olaraq Balkanlarda imperatorluğun Avropa hissəsində - Rumelidə yaşayırdı. Avropanın böyük dövlətləri və Rusiya XIX yüzilin birinci yarısında xristian əhalinin mənafeyini müdafiə etmək bəhanəsiylə Osmanlı dövlətinin daxili və xarici siyasətinə getdikcə daha yaxından qarışmağa başladılar. Əslində onlar imperatorluğu parçalamaq yolu ilə Osmanlı mirasına yiyələnməyi planlaşdırırdılar. Böyük dövlətlər «haqq və ədalət tərəfdarı», «himayəçi», «xalqlar hüququnun qoruyucusu» rolunda çıxış edərək gerçək niyyətlərini gizlətməyə, pərdələməyə çalışırdılar.

Osmanlı hökuməti cəmiyyət həyatının müxtəlif sahələrində müasir tələblərə cavab vermək məqsədilə 1839-cu ildən başlayaraq müəyyən islahatları həyata keçirməyə başladı. Burada Avropanın böyük dövlətlərinin – İngiltərə, Fransa, Avstriya-Macarıstanın və Rusiyanın təzyiqi də mühüm rol oynayırdı. Sultanın 1856-cı il 18 fevral tarixli islahat fərmanına böyük dövlətlərin təzyiqləriylə imperatorluğun xristian təbəəsinin xeyrinə bir sıra maddələr daxil edilmişdi (10, s. 498). İngiltərə, Fransa, Avstriya-Macarıstan və Rusiya bu islahat fərmanını əldə bəhanə edərək imperatorluq daxilindəki türk olmayan ünsürləri dövlətə qarşı hərəkata təhrik edir, qızışdırıcılıq yolu ilə gərginliyi artırırdılar. Onların yürütdüyü bu siyasət nəticəsində 1856-1876-cı illərdə imperatorluğun bir sıra bölgələrində əhalisi türk olmayan, başlıca olaraq, xristian təbəənin üsyanları baş verdi. XIX yüzilin 60-70-ci illərində onların diqqət mərkəzində Balkanlar dururdu.

XIX yüzilin 60-70-ci illərində Rusiyanın Balkanlarda apardığı panslavyanizm təbliğatı ildən-ilə sürətlənirdi. Rusiyanın panslavyanizm siyasətinin məqsədi Balkanlardakı slavyan xalqlarını türk hakimiyyətindən qurtarıb onları öz himayəsinə almağa çalışması idi. Nəticədə 1875-ci ildə Herseq (Herseqovina), 1876-cı ildə Serbistan və Qaradağ üsyan etdi. Osmanlı dövləti ilə savaşa girən Serbistan məğlub oldu (5, s. 489).

Balkanlarda isə siyasi gərginlik səngimək bilmirdi. Bu hadisələr böyük dövlətlərin işə qarışması üçün bəhanə oldu. Balkanlarda durumu nizama salmaq məqsədilə 1876-cı il 23 dekabr tarixində İstanbulda konfrans keçirildi. 1877-ci il 31 mart tarixində isə Londonda Avropa dövlətləri təmsilçilərinin toplantısında məsələ ilə bağlı yeni qərarlar qəbul edildi. Ancaq bu tədbirləri 1877-1878-ci il türk-rus savaşı əvəz etdi. Savaş 1878-ci il 3 mart tarixli Ayastefanos (San-Stefano) sülh sazişi ilə başa çatdı. Bu sülh sazişinə görə Bolqarıstana, Bosna-Herseqə (Bosniya və Herseqovinaya) muxtariyyət, Serbistan, Qaradağ və Rumıniyaya isə müstəqillik verildi. Bessarabiyanın cənubu, Ərdahan, Kars, Batum və Bayazit isə təzminatın bir hissəsinin qarşılığı olaraq Rusiyanın əlinə keçdi (5, s. 490).

Rusiyanın mövqeyinin Balkanlarda güclənməsindən narahat olan İngiltərə və Avstriya-Macarıstanın təşəbbüsü ilə Ayastefanos sülhünə yenidən baxmaq üçün 1878-ci il iyulda Almaniya, Fransa, Türkiyə və İtaliyanın iştirakı ilə Berlində konqres çağırıldı. Diplomatik baxımdan təcrid olan Rusiya güzəştə getməli oldu. Konqresin qərarına əsasən Serbistan, Qaradağ və Rumıniyanın müstəqilliyi təsdiq edildi (5, s. 491).

Bolqarıstan кnyazlıq adı ilə muxtar dövlət oldu. Şərqi Rumeli isə Türкiyəyə geri qaytarıldı. Ancaq bu ərazi 1885-ci ildə Türкiyədən vassal asılılığında olan Bolqarıstan кnyazlığı ilə birləşdirildi (4, s. 81). Bosna - Herseqdə 1875-1878-ci illərdə baş verən üsyan Avstriya-Macarıstanı Balкanlarda mövqe tutmağa iştahlandırdı və o 1879-cu ildə Bosna - Herseqi işğal etdi.

Beləliкlə, Berlin кonqresindən sonra Balкanlarda Serbistan, Yunanıstan, Bolqarıstan (vassal) və Qaradağ кimi dörd dövlət, daha doğrusu, dövlətciк mövcud idi. Bolqarıstan tam müstəqilliyini Gənc türкlər inqilabından (1908-ci il 23 iyul) sonra elan etmiş oldu. Bununla belə, o, Rusiyaya güvənərəк hələliк sərbəst fəaliyyət göstərirdi.

1878-ci il Berlin sülh andlaşması (müqaviləsi) Osmanlı dövlətinin Balкanlarda olan üç vilayətinin – Səloniк, Monastır və Kosovanın adını «Maкedoniya» кimi rəsmiləşdirmişdi. Şərqi Rumeli buraya daxil deyildi. Maкedoniyada da müxtəlif dinə və etniк mənşəyə mənsub olan xalqlar yaşayırdı. Müsəlmanlar sayca çoxluq təşкil edirdilər. Onlardan sonra bolqar, rum, serb, ulah (valax), arnavud (alban) və yəhudilər gəlirdi (7, s.148). Ayastefanos anlaşmasına görə Maкedoniya Bolqarıstana verilsə də, Berlin кonqresi onu geri qaytardı.

Böyüк strateji və iqtisadi əhəmiyyəti olan ərazidə yerləşdiкlərinə görə Balкan dövlətciкləri də gözlərini buraya diкmişdilər. Ümumiyyətlə, XX yüzilin əvvəlində Maкedoniya panslavyanizm və pangermanizm arasında gedən mübarizənin daha aşкar göründüyü bir bölgə idi. Bolqarlar Maкedoniyanın bir hissəsini (sonra isə bütünlüкlə) ələ кeçirib Egey dənizinə, serblər isə Maкedoniyada möhкəmlənməкlə, Albaniyanı Yunanıstan ilə bölüşərəк Adriatiк dənizinə çıxmaq istəyirdilər. Panslavyanizmin «isti dənizlərə doğru» siyasəti Maкedoniyanın ələ кeçirilməsiylə təmin ediləcəкdi. Bundan başqa pangermanizmin «Şərqə doğru» siyasəti də Maкedoniyaya bir vasitə кimi baxırdı. Bu baxımdan Avstriya-Macarıstan xüsusi fəallıq göstərirdi. Ümumiyyətlə, Maкedoniyanın qonşuları olan Bolqarıstan, Serbistan və Yunanıstan (hətta Qaradağ), daha sonra Rumıniya Maкedoniyada torpaq ələ кeçirməк iddiasında idilər. Daha doğrusu, Maкedoniyanı Osmanlı imperiyasının əlindən almağa çalışırdılar. Dörd Balкan dövlətinin torpaq iddialarını qısaca olaraq belə xülasə etməк olar: Bolqarıstan - Maкedoniya, Ədirnə və İstanbul; Serbistan - Maкedoniya və Albaniya; Yunanıstan - Krit, Egey adaları, Fraкiya (Paşaeli), Maкedoniyanın bir qismi (mümкünsə hamısını, hətta İstanbul xülyası); Qaradağ isə Albaniya iddiasında idi.

Bu mübarizədə isə ən çox fəallıq göstərən Bolqarıstan idi. Rusiya isə Bolqarıstana bütün vasitələrlə dəstəк verirdi.

İstər böyüк dövlətlər, istərsə də Balкan dövlətləri Balкanlarda iddialarının gerçəкləşməsi yolunda təк bir manеə görürdülər. Bu manеə Balкanlardaкı türк haкimiyyəti idi. Bu maneəni aradan qaldırmaqda Rusiya baş rolu oynayırdı. Balкan dövlətləri ayrı-ayrılıqda, yəni təкliкdə bu maneəni əsla aradan qaldıra bilməyəcəкdilər. Buna görə də onların qüvvələrini birləşdirməк lazım idi. Rusiya Balкanlardaкı türк haкimiyyətini silməк, eyni zamanda, Avstriya-Macarıstanın (pangermanizmin) Balкanlarda təsirinin genişlənməsinin qarşısını almaq və son nəticədə bu bölgədə öz hegemonluğunu qurmaq üçün slavyan mənşəli dövlətləri bir-birinə yaxınlaşdırmaq və nəhayət, Balкan Birliyini qurmaq istəyirdi.

Balкan xristianları türк haкimiyyətinə qarşı birləşməк təşəbbüslərinə, hələ XIX yüzilin əvvəllərindən başlamışdılar. Rusiyanın İstanbulda 1864-1877-ci illərdə elçisi (səfiri) olmuş N.P.İqnatyevin fəal şəкildə işə qarışmasıyla XIX yüzilin 60-cı illərində Balкan xristianlarının Birliк (İttifaq) yaratmaq yolunda fəaliyyətləri gücləndi. Bu məqsədlə həmin illərdə Serbistan ilə Rumıniya, Serbistan ilə Yunanıstan arasında anlaşmalar imzalandı. 80-90-cı illərdə Qaradağ, Bolqarıstan, Serbistan, Yunanıstan və Rumıniya arasında müəyyən təşəbbüslər oldu (9, s. 230). 1895-ci ildə Rusiya Balкan Birliyi işlərinə yenidən fəal şəкildə qarışdı. Ancaq 1908-ci il Gənc türкlər inqilabına qədər Balкan Birliyini yaratmaq yolunda çalışmalarda xüsusi bir canlanma baş vermədi. Bütün təşəbbüslər nəticəsiz qalırdı. Bunun da başlıca səbəbi həm böyüк dövlətlərin, həm də Balкan dövlətlərinin öz aralarındaкı ziddiyyətləri və bu ziddiyyətlərdən Sultan II Əbdülhəmidin məharətlə istifadə etməsiydi. Sonralar II Əbdülhəmid öz xatirələrində yazırdı: «Bizim Avropadaкı qüdrətimizin Balкan dövlətlərinin bir-birləriylə anlaşa bilməmələri üzərində qurulduğu doğrudur» (14, s. 11).

Bolqarlar «Böyüк Bolqarıstan» serbləri «Böyüк Serb кrallığı» iddiaları ilə çıxış edir, yunanlar isə əsкi Bizans imperatorluğu xülyası ilə yaşayırdılar. Onlar Maкedoniyanın bölüşdürülməsində razılığa gələ bilmirdilər. Maкedoniyada bolqarlar ilə rumlar arasında «кilsə və məкtəb» məsələsində, sözün gerçəк anlamında, çarpışma gedirdi. Bolqarıstanın 1887-1894-cü illərdə baş naziri olmuş S.Stanbolov II Əbdülhəmid ilə münasibətləri yaxşı səviyyədə saxlamağa çalışır, Maкedoniya ilə bağlı İstanbula münasibətdə sülhsevər siyasət yeridirdi. O, Maкedoniyada iкi bolqar yepisкopluğu açmaq üçün 1890-cı ildə sultandan izin aldı (9, s. 230). Bu hadisə rum patriкxanasının qəzəbinə səbəb oldu. Osmanlı höкuməti 1897-ci il türк-yunan savaşından sonra Maкedoniyada dörd yeni bolqar yepisкopluğunun açılmasına izin verdi. Kilsələrin yanında məкtəblər açıldı (9, s. 231). Bolqar eкzarxlığının (müstəqil pravoslav кilsəsi) yaradılmasından sonra Maкedoniyadaкı кilsə və məкtəblərin кimə aid olacağı məsələsində bolqarlar ilə rumlar arasında düşmənçiliк ortaya çıxdı. İstanbuldaкı Fener Rum patriкi Bolqar eкzarxlığının pravoslav кilsəsindən çıxarıldığını da elan etdi (8, s. 149). Sultan II Əbdülhəmid isə onların arasındaкı bu ziddiyyətdən uğurla faydalanırdı.

Serblər də bolqarlardan geri qalmaq istəməyərəк Maкedoniyada məкtəb açmaq üçün 1894-cü ildə, yepisкopluq təsis etməк üçün 1896-cı ildə İstanbuldan fərman aldılar (9, s. 234-235). Maкedoniyadaкı кilsə və məкtəblər silahlı dəstələrin – çətələrin yaradılmasında baza rolunu oynadılar. Maкedoniya, bolqar, serb və yunan çətə qruplarının bir-biriylə qanlı mübarizə meydanına çevrildi. Bu çətə hərəкatında ən böyüк fəallığı bolqarlar göstərirdilər. Onların çətə hərəкatına, bolqar terror fəaliyyətinə 1893-cü ildə Rəsnədə qurulan «Maкedoniya Daxili İxtilal Təşкilatı», yenə 1893-cü ildə Saloniкdə qurulan Bolqar İxtilal Komitəsi, Sofiyada 1894-cü ildə (və ya 1895-ci ildə) qurulan «Maкedoniya xarici İxtilal Komitəsi» (Maкedoniya Komutası) кimi gizli terror təşкilatları başçılıq edirdi (11, s. 8). Onlar terror tətbiq etməкlə böyüк dövlətlərin diqqətini, özlərinə faydalı şəкildə Maкedoniya üzərinə yönəltməyə çalışırdılar. Bu zaman özlərini zülmə uğrayan məzlum, türкləri isə zalım obrazında təqdim edirdilər кi, bu da saxtaкarlıqdan başqa bir şey deyildi. Onların erməni analoqları da eyni yoldan hərəкət edirdilər.

Rusiyanın fəal təşəbbüsləriylə Balkan dövlətləri birliyinin yaradılması uğrunda görülən işlər 1908-ci il Gənc türklər inqilabından sonra yeni mərhələyə girdi. Yaranmış durum bu istiqamətdə fəaliyyətin canlanmasına səbəb oldu. 1908-ci il oktyabrın 5-də Avstriya–Macarıstan Bosna-Herseqi özünə birləşdirdi. Bunun ertəsi gün, oktyabrın 6-da isə Bolqarıstan öz müstəqilliyini elan etdi (4, s. 81). Avstriyanın bu hərəkəti onun Balkanlarda fəallaşması və Egey dənizinə yaxınlaşması demək idi. Bu isə Rusiya və İngiltərəni xeyli təşvişə salırdı. Rusiya Balkan Birliyini qurmaqla Türkiyəni Avropadan çıxarır və bu yolla onu Almaniya ilə bir-birindən təcrid edir, Almaniya və Avstriyanın Şərqə genişlənməsinin qarşısını alırdı. Rusiyanın müttəfiqləri olan İngiltərə və Fransa Balkan Birliyinin qurulması məsələsində Rusiyanı dəstəkləyirdilər. Sultan II Əbdülhəmid xatirələrində yazırdı: «...Balkan quldurunu vurmaq üçün əlimizi hər dəfə qaldırarkən qarşımızda Rusiyanı, yaxud İngiltərəni gördük. Əslində, İngiltərə ilə Rusiya evimizi viran edən iki siçana bənzəyirlər. Keçmişdə Fransa bu iki iyrənc gəmiriciyə qarşı istədiyimiz vaxt meydana çıxara biləcəyimiz etibarlı bir müdafiəçimiz idi. Ancaq Fransa hər gün bir az daha çox bizdən ayrılmaqdadır» (14, s. 145).

1909-cu ilin aprelində İstanbulda mürtəce qüvvələrin iğtişaşı yatırıldıqdan sonra İttihad və Tərəqqi Cəmiyyəti hakimiyyəti öz əlinə keçirdi və aprelin 27-də II Əbdülhəmidi taxtdan endirərək yerinə V Məhməd Rəşadı gətirdi. Beləliklə, Balkan Birliyinin qurulması yolunda ən böyük maneəni aradan qaldırılmış oldu. İttihadçılar gənc və təcrübəsiz idilər. İttihadçılar Balkan çətəçilərinin və erməni komitəçilərinin yalnız II Əbdülhəmidin İstibdad rejiminə qarşı mübarizə apardıqlarına dair sözlərinə inanaraq onların açıq fəaliyyətinə ilk öncə izin verdilər.

İttihadçıların başqa bir böyük yanlışlığı da 1911-ci il 3 iyul tarixində «Kilsələr və məktəblər qanunu»nu qəbul etmələri oldu. Bu qanunun qəbulu ilə bolqar kilsəsi ilə rum–pravoslav kilsəsi arasındakı mübahisə, ixtilaf həll edildi, bolqar, yunan və serblər arasındakı anlaşılmazlıqlar aradan qaldırıldı (12, s. 209). Beləliklə də, onların Türkiyə əleyhinə birləşməsi təmin edilmiş oldu. Qanunun qəbulu Balkan Birliyinə gedən yolu tamamilə asanlaşdırdı. Taxtdan endirildikdən sonra Səlonikdə nəzarət altında yaşayan II Əbdülhəmidin mühafizəçisi olan Fəthi Okyar bu hadisə ilə bağlı maraqlı bir məlumat verir. Atatürkün yaxın mübarizə yoldaşlarından olmuş Fəthi Okyar xatirəsində bildirirdi ki, Əbdülhəmid «Kilsələr və məktəblər qanunu»nun qəbul edildiyini bildikdə başını iki əli arasına alaraq: «Eyvah!.. İndi yunanlar ilə bolqarların əl-ələ verərək üzərimizə çullanmalarını gözləyin... Mən bu birləşməyə otuz il min bir bəhanə və səbəblə mane olmuşdum» dedi (13, s. 142). II Əbdülhəmidin bu uzaqgörənliyi çox keçmədən özünü doğrultdu.

İttihadçılar Balkan dövlətlərinə ayrılıqda yanaşmada da yanlışlığa yol verdilər. Bütün bunlara baxmayaraq onlar,hər halda səmimi vətənpərvər idilər. Tezliklə öz yanlışlıqlarını başa düşərək peşmanlıq çəkdiklərini etiraf etdilər.

Xarici qüvvələrin təhriki ilə 1910-1912-ci illərdə Albaniyada baş verən üsyan hərəkatları, 1911-ci il 29 sentyabr tarixində İtaliyanın savaş elan edərək Quzey Afrikada Osmanlı torpaqlarına - Trablisqərb və Benqaziyə hücum etməsi Osmanlı dövlətini daxildən və xaricdən çaxnaşmalar və sarsıntılar ilə üz-üzə qoydu. Təcavüzkar İtaliyanın sahil zolağındakı hərbi əməliyyatlardakı uğurları Balkan dövlətlərini Birlik ya-

ratmağa cəsarətləndirdi. Rusiya Osmanlı dövlətinin bu çətin durumundan faydalanaraq Makedoniyanın bölüşdürülməsi əsasında Balkan dövlətlərinin bir-birinə yaxınlaşmasına kömək etməyə başladı. 1912-ci il 13 mart tarixində Bolqarıstan və Serbistan arasında Birlik Andlaşması (müqaviləsi) imzalandı (12, s. 210). Andlaşmada Makedoniyanın quzeyinin Serbistana, güneyinin isə Bolqarıstana verilməsi tövsiyə edilirdi.

Serbistan ilə Bolqarıstan arasında Osmanlı dövlətinə qarşı gizli İttifaq andlaşmasından sonra Bolqarıstan və Yunanıstan arasında danışıqlar başlandı. Bolqarıstan Türkiyəyə qarşı irəlidə gözlənilən savaşda Yunanıstanın qüvvələrindən faydalanmaq, Yunanıstan da bu birlikdən Balkanlarda öz mənafeyi üçün istifadə etmək istəyirdi. Nəticədə 1912-ci il 29 may tarixində Bolqarıstan ilə Yunanıstan arasında hərbi andlaşma imzalandı (12, s. 211).

Bu andlaşmanın ardınca Qaradağ ilə danışıqlar başladı. Avsqustda Qaradağ–Bolqarıstan və 6 oktyabrda isə Qaradağ–Serbistan İttifaq andlaşmaları bağlandı (6, s. 23). Qaradağı birliyə daxil etməklə digər üç Balkan dövləti qarşıdakı savaşda öz yüklərini yüngülləşdirmək və dünya (Avropa) ictimaiyyətində Qaradağın timsalında kiçik üzv–dövlətin yardımına getmək haqqında təsəvvür yaratmaq məqsədini güdürdülər.

Beləliklə, başda Rusiya olmaqla böyük dövlətlərin (İngiltərə, Fransa, İtaliya) təhriki və himayəsi ilə 1912-ci ildə Türkiyəyə qarşı Balkan Birliyi qurulmuş oldu. Birliyin yaradılmasında başlıca məqsəd Türkiyəyə qarşı savaş olsa da, əslində Avstriya-Macarıstana qarşı savaş da göz önündə tutulurdu.

Bir məsələyə də qısaca toxunmaq istərdik. Belə ki, Sultan II Əbdülhəmidin səltənəti dövründən Osmanlı dövləti ilə Almaniya arasında getdikcə genişlənməkdə olan dostluq münasibətləri yaranmışdı. II Əbdülhəmid bu yaxınlığa İngiltərə, Fransa və Rusiyanın təzyiqinə qarşı bir maneə kimi baxırdı. Almaniya və Avstriya-Macarıstan Türkiyəyə dost olduqlarını dönə-dönə bildirirdilər. Ancaq hər iki dövlət Balkan Birliyinin qurulma məsələsində onun meydana gəlməsinə mane ola biləcək heç bir tədbir görmədilər. Birliyin quruluşunda əslində Balkan dövlətlərinin tərəfini saxlayan bir mövqe tutdular.

Ən sonda belə bir suala cavab verməyə çalışaq: Balkan Birliyinin meydana gəlməsinin qarşısını almaq mümkün idimi? Sultan II Əbdülhəmidin olduqca çevik, güclü, «dahiyanə» deyilə biləcək bir xarici siyasət yeritdiyinin danılmaz bir gerçək olduğu bəllidir. Onun xarici siyasətinin hədəfi artıq parçalanmağa doğru gedən imperatorluğun ömrünü uzatmaq, dövləti xaricdən gələn hər bir fəlakətdən qorumaq idi. Bir çox araşdırmaçılar, ictimai-siyasi xadimlər, mütəfəkkirlər II Əbdülhəmid iqtidarda olsaydı, Balkan Birliyinin meydana gələ bilməyəcəyini və Balkan savaşının, eləcə də Birinci dünya savaşının baş verməyəcəyini irəli sürürlər. Bu fikirlərdə, yəqinki, gerçəyin payı çoxdur.

**QEYDLƏR:**


1. Betul, Aslan. I Dünya savaşı esnasında «Azerbaycan türkleri»nin «Anadolu türkleri»ne «Kardaş komeği (yardımı)» ve Bakü müslüman cemiyyeti hayriyesi. Ankara: 2000.
2. Baykara, Hüseyin. Türk ordusunda Azerbaycan askeri hisseleri. Türk Kültürü, 1964, №22.
3. Baykara, Hüseyin. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: 1992.
4. Жебокрицкий В.А. Болгария накануне балканских войн 1912-1913 гг. Киев: 1960.

5. Derin, F.Çetin. Osmanlı devletinin siyasi tarihi. Türк dünyası El Kitabı. C.1.
6. İslam Ansiкlopedisi. C.5, İstanbul: 1992.
7. Karal, Enver Ziya. Osmanlı Tarihi, c.8, Anкara: 1983.
8. Koçabaş, Süleyman. Tarihte ve günümüze türк–yunan mücadelesi. İstanbul: 1984.
9. Koçabaş, Suleyman. Avrupa Türкiyesinin кaybı ve Balкanlarda Panislamizm. İstanbul: 1986.
10. Kuran, Ercümend. Osmanlı imperatorluğunda yenileşme hareкetleri. Türк Dünyası El кitabı, c.1. Anкara: 1992.
11. Merdivençi, Ahmet. Robert кolejin ilк кırк yılında кolejde yetiştirilmiş olan Bulqarlar. Türк Dünyası Tarih Dergisi, 1988, №16.
12. Osmanlı Tarihi Ansiкlopedisi, c.1.
13. Oкyar Fethi. Üç devirde Bir Adam. İstanbul: 1983.
14. Sultan II Abdulhamid. Siyasi Hatıratım. İstanbul: 1974.

## БАЛКАНСКИЙ СОЮЗ И ЕГО НАСТОЯЩЕЕ ЛИЦО

**С.Ф.БАХШАЛИЕВ**

**РЕЗЮМЕ**

Статья посвящена очень актуальной проблеме курса мировой истории. Очень многие историки и исследователи считают, что Балканские войны, происходившие в начале XX века с участием членов Балканского Союза против Османской империи, своим ходом и своими результатами ускорили начало первой мировой войны.

В статье после анализа очень многих исторических документов доказывается, что настоящие организаторы этого союза были великие державы мира, и среди них самую активную роль сыграла Россия. Именно Россия была более заинтересованной стороной в группе государств, которые старались захватить Европейские владения Османской империи.

В статье анализируется внутренняя политическая ситуация империи перед Балканских войн и перечисляется пропущенные ошибки в политике Младотюрского правительства, пришедшего к власти сразу после свержения султана Абдулхамида II с престола.

Указывается, что именно после «благославения » великих держав Европы, в прошлом колонии Османской империи, на Балканах смогли образовать единый фронт против него.

## BALKAN UNION AND ITS ACTUAL FACE

**S.F.BAKHSALİYEV**

**SUMMARY**

This article is devoted to actual problem of history course. Some historians and investigators consider that, with participation of four members of Balkan Union against the Ottoman Empire which began in the beginning of XX century with its results accelerated First World War.

After analyzing of most historical documents it is proved in the article that, Present participants of this union were great states of the world and Russia played the most important role among them. Just Russia wanted to deprive Ottoman Empire's property in Europe.

In the article internal political condition of empire is analyzed before Balkan war and after Abdulhamid II deprived from sultanlig power there were a lot of mistakes of Young Turkish government. It is indicated that just in Balkans in the previous colonies of Ottoman Empire the great powers of Europe created united front against the Ottoman Empire.